

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Fevral 2021

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

“COVİD-19 PANDEMİYASI
BÜTÜN İQTİSADIYYATLARIMIZA
BÖYÜK TƏSİR GÖSTƏRDİ,
BİZ BU ŞƏRAİTDƏ MÜQAVİMƏT GÜCÜMÜZÜ
ARTIRMALIYIQ VƏ BƏRPA İŞLƏRİ
ÜZƏRİNDƏ İŞLƏMƏLİYİK.
İNVESTİSİYALAR ÜÇÜN YOLLAR AÇILMALIDIR
VƏ ONLAR REALLAŞMALIDIR Kİ,
XALQLARIMIZIN HƏYATI DAHA DA
YAXŞILAŞSIN”.

İLHAM ƏLİYEV
Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində
nazirlərin videokonfrans formatında
VII iclasında çıxışı,
11 fevral 2021



# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 7

2021-ci ilin yanvar ayında “Azərkosmos” ASC 1,98 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir ____ səh. 10

2021-ci ilin yanvar ayında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 11

Azexport.az portalına 2021-ci ilin yanvar ayında 53,9 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 13

2021-ci ilin fevral ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 20,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 16

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar ayı** ərzində **Azərbaycanın ixracı 1,6 milyard** ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

2021-ci ilin **yanvar ayında** qeyri-neft sektoru üzrə ixrac **146 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin yanvar ayı ərzində Azərbaycanın ixracı **1,6 milyard** ABŞ dolları olub. Qeyri-neft sektoru üzrə **146 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,2 milyon ABŞ dolları və ya **3,7 faiz artıb**.

Bu ilin yanvar ayı ərzində Türkiyəyə **52,7 milyon**, Rusiyaya **42,8 milyon**, İsveçrəyə **10 milyon**, Gürcüstana **6,4 milyon** və Çinə **4,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2020-ci ilin yanvar ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (16,7 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (14,3 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (10,2 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2021-ci ilin yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 37 milyon, pambıq lifi ixracı 14,3 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 13,8 milyon, kimya sənayesi məhsullarının ixracı 3 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 7,8 milyon, pambıq ipliyi ixracı 3,2 milyon, spirtli və spirtsiz içkilərin ixracı 1 milyon, şəkər ixracı 1,5 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 1,7 milyon, çay ixracı 760 min ABŞ dolları təşkil edib.

# 2021-ci ilin YANVAR AYINDA qeyri-neft sektoru üzrə 5 ƏSAS İXRAC ÖLKƏSİ
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI FEVRAL



## 2021-ci ilin **YANVAR AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI FEVRAL

| Mal | 2021 | 2020 |
|---|---|---|
| Xurma | 16,7 | 10,6 |
| Pambıq mahlıcı | 14,3 | 10,3 |
| Qabığı təmizlənmiş meşə fındığı | 10,2 | 11,2 |
| İlkin formalı polipropilen | 10,1 | 6,6 |
| Qızıl | 9,7 | 16,3 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 6,9 | 4,1 |
| Tomat (pomidor) | 6,9 | 13,2 |
| Digər yağlar və məhsullar | 6,0 | 0 |
| Aşqarlanmamış alüminiumdan düzbucaqlı plitələr | 5,1 | 3,0 |
| Digər | 60,4 | 60,6 |

# YANVAR AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)



## 2019




Xurma
**12,6**

## 2020




Qızıl
**16,3**

## 2021




Xurma
**16,7**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2021-ci ildə yanvar ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar ayı üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Almeyvə" MMC, "Baku Steel Company", "Critical Fruit" MMC, "Aqrovest" MMC, "Sun Food" MMC, "Land Lojistic" MMC, "P-Aqro" MMC, "Metal Trader LTD" MMC və "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə "Socar Polymer" MMC və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC və "Azərbaycan Hava Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2021-ci ilin **YANVAR AYINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



## 2021-ci ilin **YANVAR AYINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI FEVRAL




* “Socar Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin **YANVAR AYINDA "AZƏRKOSMOS" ASC 1,98 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**

2021 İXRAC İCMALI FEVRAL



2021-ci ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın **21 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **84 faizini** təşkil etmişdir.




2021-ci ilin yanvar ayında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
| --- | --- |
| Birləşmiş Krallıq | 825 min $ |
| Fransa | 625 min $ |
| BƏƏ | 131 min $ |
| Pakistan | 110 min $ |
| Türkiyə | 45 min $ |



# 2021-ci ilin **yanvar ayında** Azərbaycanda **xaricilər bank kartları vasitəsi ilə** **25 milyon** manatlıq əməliyyat aparmışlar

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda müşahidə olunan tənəzzül cari ilin ilk ayında da davam etmişdir.

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2021-ci ilin yanvar ayında Azərbaycana dünyanın 105 ölkəsindən 36,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,3 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmiş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilmişdir.

2021-ci ilin yanvar ayında ölkəmizə gələnlərin 34,1 faizi Rusiya Federasiyası, 28,4 faizi Türkiyə, 13,1 faizi İran, 11,7 faizi Gürcüstan, 2,1 faizi Ukrayna, 1,5 faizi Böyük Britaniya, 1,0 faizi Belarus, hər birindən 0,8 faiz olmaqla Özbəkistan və Türkmənistan, 0,7 faizi Qazaxıstan, 0,6 faizi Almaniya, 0,5 faizi İtaliya, 0,4 faizi ABŞ, 0,3 faizi Fransa, 4,0 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar ayında Gürcüstandan gələnlərin sayı 15,1 dəfə, Qazaxıstandan - 12,6 dəfə, Türkmənistandan - 8,8 dəfə, Özbəkistandan - 6,0 dəfə, Rusiya Federasiyasından - 5,5 dəfə, Ukraynadan - 5,3 dəfə, Böyük Britaniyadan - 3,5 dəfə, İrandan - 2,8 dəfə, Belarusdan - 2,6 dəfə, Türkiyədən - 2,3 dəfə azalmışdır.

2020-ci ilin yanvar ayı ilə müqayisədə ümumilikdə Körfəz ölkələrindən gələnlərin sayı 7,3 dəfə azalaraq 4,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 5,6 dəfə azalaraq 14,4 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 3,7 dəfə azalaraq 1,6 min nəfər olmuşdur.

2021-ci ilin yanvar ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **25 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)



**2019**

Yanvar - **88,3**

**2020**

Yanvar - **85,2**

**2021**

Yanvar - **25**

# 3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR AYINDA 53,9 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri**
**2 milyard 250 milyon** ABŞ dolları
təşkil etmişdir

2021-ci ilin yanvar ayında Azexport.az portalına 53,9 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2020-ci ilin yanvar ayı ilə müqayisədə 2021-ci ilin müvafiq dövründə portal daxil olan ixrac sifarişləri dəyər baxımından 28 faiz artmışdır.

2021-ci ilin yanvar ayında Azexport.az portalına ən çox ixrac sifarişi fındıq, toyuq əti, pambıq yağı, toyuq yumurtası, pambıq mahlıcı, biyan kökü, nar şirəsi və toxumu, kərə yağı, sarımsaq, şərab, çay, boya, kosmetik vasitə, xurma, diaqnostika cihazı və s. mallara daxil olub.

2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 yanvar tarixinə kimi (49 ay ərzində) Azexport.az portalına dünyanın **143 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 250** milyon ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## AZEXPORT.AZ PORTALINA daxil olan İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**




2021-ci il

Yanvar - **53,9 mln $**



Son **49 ay** ərzindəki sifarişlərin cəmi - **2 249,5 mln $**

# 2021-ci ilin **YANVAR AYINDA** AZEXPORT.AZ PORTALINDAN **İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR**

2021 İXRAC İCMALI FEVRAL

Fındıq



Toyuq əti



Pambıq yağı



Toyuq yumurtası



Pambıq mahlıcı



Nar şirəsi və toxumu



Biyan kökü



Kərə yağı



Sarımsaq



Şərab



Çay



Boya



Kosmetik vasitə



Xurma



Diaqnostika cihazı



4

# 2021-Cİ İLİN FEVRAL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 20,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin fevral ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **117 dəfə** müraciət daxil olunub. Ümumilikdə **148 ədəd sertifikat** (63 ədəd mənşə, 44 ədəd baytarlıq, 14 ədəd Qida təhlükəsizliyi sertifikatı, 27 ədəd CİTES) verilib.

Cari ilin fevral ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **20,1 (20,060,664.97) milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma şirələri, narşərab, pivə, feyxoa və heyva spirtsiz içkiləri, zəfəran mürəbbələri, bitki və günəbaxan yağları, tibbi zəli, duzlanmış qoyun bağırsağı, xromlanmış heyvan dərisi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, pendir, feyxoa və heyva spirtli içkilər, nərəcinsli balıqların təzə dondurulmuş əti, quru meyvələr, qatılaşdırılmış süd, dondurma, quşlar üçün peyvənd, işlənmiş katalizator, polad armatur yayması, polad boru, polad kvadrat pəstah ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (64,5%), (polad armatur yayması (11,7%), günəbaxan yağları (10,1%), pendir (6,1%), meyvə şirələrinin (1,9%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 22 ölkəyə- İsveçrə (64,5%), Rusiya (10,4%), Gürcüstan (9,4%), Türkiyə (7,2%), Ukrayna (0,8%), digər ölkələrə (7,8%)- (ABŞ, Baltimor, Dubay, Fələstin, Polşa, Misir, Belarus, Fil Dişi Sahili, Avstraliya, İraq, Kanada, Belçika, Honq-Konq, İsrail, Qazaxıstan, BƏƏ, Özbəkistan) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (64,9%), avtomobil ilə (28,2%), dəmiryolu nəqliyyatı (6%), qarışıq nəqliyyat ilə ixracı isə (0,9%) təşkil edir.

2021-ci ilin **FEVRAL AYINDA** “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)








# Cari ilin **FEVRAL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

- İSVEÇRƏ **64,5%**
- RUSİYA **10,4%**
- GÜRCÜSTAN **9,4%**
- TÜRKİYƏ **7,2%**
- UKRAYNA **0,8%**



## Cari ilin **FEVRAL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
## **ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**

2021 İXRAC İCMALI FEVRAL



# Cari ilin **FEVRAL AYINDA “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

İXRAC İCMALI 2021 FEVRAL



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.


iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


